**UOT 336.714**

# AZƏRBAYCANIN İNVESTİSİYA SİYASƏTİNƏ KONSEPTUAL YANAŞMA

**Ramiz GÜLMƏMMƏDOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 3 iyun 2024; çapa qəbul edilmişdir: 23 iyul 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.
Received: 3th of June, 2024; accepted: 23th of July, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *investisiya siyasəti, investisiyaların cəlb edilməsi, daxili investisiya, xarici investisiya, investisiya mühiti*

## Giriş

İnvestisiya siyasəti ölkənin iqtisadi inkişafını dəstəkləmək və genişləndirmək üçün qəbul etdiyi tədbirlərdən və strategiyalardan ibarətdir. Bu siyasət yerli və xarici investorları cəlb etmək, inkişafı təşviq etmək, infrastrukturun inkişafını dəstəkləmək, biznes sahələrini genişləndirmək, təcrübəli işçi qüvvəsini cəlb etmək və innovasiyaları stimullaşdırmaq məqsədi daşıyır. İnvestisiya siyasəti ölkənin iqtisadi potensialını artırmaq, sürətli inkişafını təmin etmək və müasir dünya iqtisadiyyatına inteqrasiya etmək məqsədilə hazırlanır və həyata keçirilir.

İnvestisiya siyasəti ölkənin iqtisadi gələcəyini formalaşdırmaq üçün qərarlar və tədbirlər toplusudur. Konseptual yanaşma bu siyasətin əsaslarını, məqsəd və prinsiplərini konseptuallaşdırmaq və formalaşdırmaq deməkdir. İnvestisiya siyasətinin konseptual yanaşmasında ölkənin maliyyə sistemi, iqtisadi inkişaf modeli, infrastrukturu, sənaye strukturu, innovasiya potensialı, sosial məsələlər və bir çox digər amillər nəzərə alınır.

## 1. İnvestisiya siyasəti və elmi ədəbiyyatda nəzəri əsaslarına baxış

Məlumdur ki, investisiyalar hər bir dövlətin iqtisadiyyatının inkişafında çox mühüm rol oynayır, ona görə də onların elmi əsaslarla düzgün şərhi böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Hələ SSRİ-nin mövcud olduğu dövrdə, yəni planlı iqtisadiyyatda “kapital qoyuluşu” anlayışından istifadə olunurdu ki, bu da üç səbəblə izah edilə bilər. Əvvəla, “investisiya” anlayışı bazar iqtisadiyyatı ilə bağlı idi və buna görə də ölkəmizdə inkar edilmişdir. İkincisi, planlı iqtisadiyyatda vəsaitlər ilk növbədə əsas kapitala yatırılırdı, ona görə də elmi nöqteyi-nəzərdən “kapital qoyuluşları” termininin istifadəsi qanuni idi. Üçüncüsü, planlı iqtisadiyyat şəraitində dövlət istiqrazları istisna olmaqla, maliyyə alətləri praktiki olaraq istifadə edilmirdi [16, s. 9].

Azərbaycanın bazar münasibətlərinə keçidi bütün şərtləri ilə iqtisadi ədəbiyyatda, biznesdə və gündəlik həyatda “investisiya” anlayışı üstünlük təşkil etməyə başladı. Yerli və xarici iqtisadi ədəbiyyatın təhlili investisiyanın mahiyyətinin dərk edilməsində qarışıq mənzərəni göstərmişdir ki, bu konsepsiyanın ayrı-ayrı alimlər tərəfindən verilmiş ifadələri də bunu əyani olaraq sübut edir (*Cədvəl. 1*).

*Cədvəl 1.*

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: ramizgulmemmedov11@gmail.com
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.053

*Alimlər və mütəxəssislər tərəfindən investisiyanın mahiyyətinin şərhi*

| Müəlliflər | İnvestisiyaların şərhinin mahiyyəti |
|---|---|
| V. M. Askinadzi, V. F. Maksimova, V. S. Petrov | İnvestisiya mənfəət əldə etmək və ya başqa müsbət effekt əldə etmək məqsədilə investisiya fəaliyyəti obyektlərinə qoyulan hər hansı bir əmlak növüdür [3, s. 28]. |
| G. P. Podşivalenko, N. V. Kiselevova | İnvestisiya kapitalın formalarının dəyişdirilməsi, ardıcıl olaraq ilkin resursların və dəyərin investisiya məsrəflərinə çevrilməsi və yatırılmış vəsaitlərin gəlir və ya sosial effekt şəklində kapital gəlirinə çevrilməsinin dinamik prosesidir [13, s. 16]. |
| G. P. Podşivalenko, N. I. Laxmetkina, M. V. Makarova | İnvestisiyalar dedikdə, mənfəət (gəlir) əldə etmək və həm də fərdi investorların məqsədlərinə nail olmaq üçün iqtisadiyyatın müxtəlif sahə və sahələrinə, biznes və digər fəaliyyət növlərinə müəyyən müddət ərzində məqsədyönlü kapital qoyuluşu şəklində həyata keçirilən xərclər məcmusu başa düşülür [14, s. 22]. |
| V. V. Kovalev, V. V. İvanova, V. A. Lyalin | İnvestisiya dedikdə, investorların fərdi məqsədlərinə çatmaq üçün kapitalın bütün formalarında müxtəlif obyektlərə (alətlərə) müəyyən edilmiş müddətə məqsədyönlü investisiya yatırımı kimi başa düşülür [9, s. 32]. |
| N. L. Marenkov | İnvestisiyalar, gələcək ehtiyacları ödəmək üçün nəzərdə tutulmuş, cari istifadədən yayındırılan və fayda gətirən müəyyən bir işə yatırılan hər hansı mövcud vəsaitlərdir [11, s. 19]. |
| V. V. Boçarov | İnvestisiya kapitalın hər hansı bir biznesə sonradan böyüməsi məqsədilə qoyulmasıdır [7, s. 42]. |
| O. S. Evsenko | İnvestisiyalar -bu aktivlərdən gələcək gəlir əldə etmək üçün müxtəlif növ aktivlərə pul qoyuluşudur [8, s. 12]. |
| W. Sharp, G. Aleksandr, J. Bailey | İnvestisiya indiki anda müəyyən bir dəyərdən gələcəkdə bir dəyər üçün (bəlkə də müəyyən edilməmiş) imtinadır [18, s. 48]. |
| K. McConnell, S. Bru | İnvestisiyalar istehsal vasitələrinin istehsalı, toplanması və maddi ehtiyatların artması xərcləridir [10, s. 92]. |
| Z. Bodi, A. Kein, A. Markus | İnvestisiya gələcək səmərə əldə etmək üçün nağd pul və ya digər vəsaitlərin cari xərclənməsidir [6, s. 58]. |
| J. Rosenberg | İnvestisiya puldan gəlir əldə etmək və ya kapital artımına nail olmaq üçün və ya hər ikisi üçün istifadə edilməsidir [15, s. 128]. |
| A. A. Blaqodatin, L. Ş. Lozovski, B. A. Raizberq | İnvestisiyalar – öz ölkəsində və ya xaricdə müxtəlif sənaye müəssisələrinə, sahibkarlıq layihələrinə, sosial-iqtisadi proqramlara, innovativ layihələrə gəlir əldə etmək məqsədilə kapital qoyuluşudur [4, s. 95] |
| İbrahimov F. M. | İqtisadi kateqoriya olmaq etibarilə investisiya dedikdə mənfəət və ya sosial effekt əldə edilməsi məqsədilə sahibkarlıq obyektləri və digər növ fəaliyyətlərə qoyulmuş maliyyə vəsaiti, eləcə də maddi və intellektual qiymətlilər nəzərdə tutulur [2, s.12]. |

**Mənbə: (**Müəllif tərəfindən hazırlanmışdır).

Qeyd edək ki, *Cədvəl.1*-dəki yanaşmaların ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. İnvestisiyaların mahiyyətini əks etdirən ifadələrin hər biri müəyyən elmi maraq kəsb edir, çünki o, investisiyanın mahiyyətinə fərdi müəllifin baxışını müəyyən etməyə və bu konsepsiyanı daha ətraflı təqdim etməyə imkan verir.

2. Bir çox müəlliflər tərəfindən investisiyaların mahiyyətinin şərhləri bəzi xırda detallar istisna olmaqla, müəyyən dərəcədə oxşardır.

3. İnvestisiyaların mahiyyətinin qısa və lakonik tərifləri var ki, bu da əsasən həm xarici müəlliflər və həm də daha müfəssəl olan yerli müəlliflər üçün də xarakterikdir.

4. Bəzi təriflərdə əhəmiyyətli səhvlər var, onların mahiyyəti ən dəqiq şəkildə İ.A.Blank tərəfindən ümumiləşdirilib və bunlara, əsasən, aşağıdakıları aid etmək olar:

- bəzi təriflər investisiyaları yalnız kapital artımı və ya cari gəlir (mənfəət) əldə etmək məqsədləri ilə əlaqələndirir. Bazar iqtisadiyyatında bu məqsəd həlledici olsa da, investisiyalar həm kapital qoyuluşunun iqtisadi, həm də qeyri-iqtisadi məqsədlərini həyata keçirə bilər;

- "investisiya" anlayışı "kapital qoyuluşu" anlayışı ilə eyniləşdirilir. Bu halda investisiyalar əsas fondların təkrar istehsalına-həm istehsal, həm də qeyri-istehsal xarakterli kapital qoyuluşları hesab edilir. Eyni zamanda, dövriyyə aktivlərinin artımına və müxtəlif maliyyə alətlərinə, qeyri-maddi aktivlərin müəyyən növlərinə investisiya qoyula bilər. Nəticə etibarilə, kapital qoyuluşları daha dar anlayışdır və onların analoqu kimi deyil, yalnız investisiya formalarından biri kimi qəbul edilə bilər;

- investisiyaların bəzi tərifləri onların hər hansı bir sahəyə pul vəsaitlərinin yatırımı, yəni vəsait investisiyası olduğunu göstərir. Biz də bu kateqoriyanın qeyd olunan şərhi ilə razılaşa bilmərik. Çünki kapital qoyuluşu təkcə pulla deyil, həm də başqa formalarda - daşınar və daşınmaz əmlak (kapital vəsaitləri), müxtəlif maliyyə alətləri (ilk növbədə qiymətli kağızlar), qeyri-maddi aktivlər və s. ilə həyata keçirilə bilər [5, s. 64].

"İnvestisiya" anlayışının rəsmi şərhi də mövcuddur. Belə ki, "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 22 iyun 2022-ci il Qanunda aşağıdakı tərif verilir: "İnvestisiyalar-gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar"dır [1].

Bütün yanaşmalara diqqət yetirsək, görərik ki bu tərif, investisiyanın mahiyyətinin kifayət qədər yaxşı ifadəsidir. Yuxarıda təqdim olunan materialın ümumiləşdirilməsinə əsasən, investisiyalar gələcəkdə hər hansı faydalı effekt əldə etmək məqsədilə müəssisəyə müxtəlif formalarda kapital qoyuluşu kimi təqdim edilə bilər. Müxtəlif təsnifatlara görə investisiyaları fərqli şəkildə səciyyələndirmək olar (*Şəkil 1*).

*Şəkil 1.*

*İnvestisiyanın növləri*




**Mənbə:** (Müəllif tərəfindən hazırlanmışdır).

Bu problemin kökündən həlli şaxələndirmədir və bu da kommersiyanın müxtəlif sahələrindən vəsaitləri bir neçə növ investisiyalar üzrə səpələməyə imkan verir. Bəzi iqtisadçılar vəsaitlərin uçotu metoduna görə investisiyanı əlavə olaraq xalis və ümumi investisiyalara bölürlər. Xalis investisiyalara amortizasiya xərcləri istisna olmaqla, investisiyaların bütün məbləği daxildir.

## 2. İnvestisiya siyasəti iqtisadi artımın əsası kimi

İnvestisiya siyasəti investisiya fəaliyyəti üçün ilkin şərtlər, imkanlar və şərait sisteminin yaradılmasını əks etdirən fəaliyyət növü kimi həm dövlət orqanlarını, həm bütün səviyyələrdə dövlət idarəçiliyini və həm də sahibkarları eyni dərəcədə əhatə edir. Müəyyənedici amil dövlətin iqtisadi və sosial siyasətinin tərkib hissəsi kimi dövlət investisiya siyasətidir.

Dövlət investisiya siyasəti investisiya fəallığının yüksəldilməsi, iqtisadiyyatın inkişafı, istehsalın səmərəliliyinin artırılması və sosial problemlərin həlli məqsədilə bütün sahibkarlıq subyektləri üçün əlverişli şəraitin yaradılması üçün dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər məcmusudur [17, s. 29].

Ümumiyyətlə, dövlət investisiya fəaliyyətinə müxtəlif rıçaqlardan, kredit, maliyyə və vergi siyasətləri, istehsalın yenidən qurulması və texniki cəhətdən yenidən təchiz edilməsinə sərmayə qoyan müəssisələrə vergi güzəştlərinin verilməsi, amortizasiya siyasəti, xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərait yaratmaqla, investisiya, elmi-texniki siyasət və s. istifadə etməklə təsir göstərə bilər. İnvestisiya siyasətinin struktur təsvirlərindən biri, o cümlədən dövlət investisiya siyasəti, regional və sahəvi investisiya siyasəti, müəssisə investisiya siyasəti və bəzi digər növləridir [12, s. 75].

İnvestisiya siyasəti iqtisadi artımın əsası kimi mühüm rol oynayır. İnvestisiya siyasəti ölkənin iqtisadi sənayesini, infrastrukturunu, texnologiyalarını və insan resurslarını inkişaf etdirmək üçün maliyyə və digər resursları necə cəlb etməli olduğunu müəyyən edir. Bu siyasət iqtisadi inkişafa, iş yerlərinin açılmasına, innovasiyalara və ümumi rifahın yüksəlməsinə təkan verir.

Əhalinin investisiya fəallığını artırmaq üçün dövlət yüksək həyat səviyyəsini, vətəndaşların sosial təminatını təmin etməli, millətin rifahının qayğısına qalmalıdır. Bu tədbirlər həm də əlverişli investisiya mühitinin yaradılmasına da kömək edərdi. Bu mənada sosial-iqtisadi siyasətin bütün növləri bir-biri ilə bağlıdır (*Şəkil. 2*).

*Şəkil 2.*

*Dövlətin sosial-iqtisadi siyasəti*



**Mənbə:** (Müəllif tərəfindən hazırlanmışdır).

İnvestisiya siyasəti dövlətin iqtisadi və sosial siyasətinin tərkib hissəsi və regional inkişafa təsir alətlərindən biridir. Regionun sosial-iqtisadi inkişaf səviyyəsi ilə investisiya fəallığının səviyyəsi arasında sıx ikitərəfli əlaqə mövcuddur. Bir tərəfdən, regionun yüksək inkişaf səviyyəsi onun investisiya cəlbediciliyini və ərazisində fəallığını artırır, digər tərəfdən isə, investisiya fəallığı regionun iqtisadi inkişaf səviyyəsinin yüksəlməsinə kömək edir. Dövlət investisiya siyasəti ona görə həlledicidir ki, o, investisiya sferasında sivil "oyun qaydaları" yaradır və regional səviyyədə, iqtisadi fəaliyyət növləri kontekstində və mikro səviyyədə investisiya fəaliyyətinin aktivləşməsinə töhfə verir, innovasiyaları təşviq edir və xarici investisiyaların cəlbediciliyini artırır.

**Nəticə**

İnvestisiya fəaliyyətinin nəzəri aspektlərini öyrənərək aşağıdakı nəticələrə gələ bilərik ki, müasir Azərbaycan şəraitində yeni investisiyaların axınına ehtiyac regionun canlı iqtisadi inkişafı ehtiyacı ilə bağlı problemlərin həlli zərurəti ilə müəyyən edilir. Azərbaycan iqtisadiyyatında investisiya anlayışının təriflərində onların iqtisadi mahiyyətini anlamaq üçün yanaşmaların çoxluğunu əks etdirən müxtəlif dəyişikliklər mövcuddur. Bu, böyük ölçüdə iqtisadi təkamül, tarixi və iqtisadi inkişafın konkret mərhələlərinin xüsusiyyətləri, idarəetmənin üstünlük təşkil edən forma və üsulları ilə bağlıdır. İnvestisiya fəaliyyətinin regional xüsusiyyətləri regional iqtisadiyyatın investisiya artımı üçün yeni səmərəli şəraitin təmin edilməsi kimi mühüm vəzifəni əsaslandırır. İnvestisiya resursları bazarlarının inkişafında amillər kompleksinin, investorların davranışı üçün motivasiya amillərinin, dövlət büdcə və investisiya siyasətinin təsirini nəzərə almaq lazımdır. Regional investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi mürəkkəb çoxmərhələli vəzifədir ki, onun hər bir mərhələsi ayrı-ayrılıqda öyrənilməsi və regionun sosial-iqtisadi sisteminin fəaliyyətinin dəyişən şərtlərinə daimi uyğunlaşma tələb edir. Regionun investisiya siyasətinin məqsədlərinə əməli şəkildə nail olunması onun həyata keçirilməsi mexanizminin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi ilə bağlıdır.

Azərbaycanda investisiya siyasətinin həyata keçirilməsi mexanizmi onların fəaliyyətini təmin edən metodların və sistemlərin məcmusu kimi başa düşülməlidir. Belə ki, bunun köməyi ilə dövlət orqanları ölkənin sosial-iqtisadi inkişafının müntəzəm vəzifələrini həll etmək üçün investisiya prosesinin iştirakçılarına təsir göstərir. Ölkənin investisiya siyasətinin həyata keçirilməsi mexanizminin əsas xüsusiyyəti onun bütün cəlb olunan tərəflərin maraqlarının əlaqələndirilməsinə yönəlməsidir, buna görə də nəzərdən keçirilən mexanizmin strukturunda investisiya prosesində təkcə öz aralarında deyil, həm də xarici mühitlə qarşılıqlı əlaqəni təmin edən motivasiya bloku mühüm yer tuta bilər.

## ƏDƏBİYYAT


1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının *2022-ci il 22 iyun* tarixli Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il. (https://e-qanun.az/ frame work/50048).
2. İbrahimov F. M., Xarici investisiyalardan istifadənin tənzimlənməsi məsələləri//. // İqtisadiyyat və həyat, Bakı, 2005, s. 39-42.
3. Аскинадзи В.М., Максимова В.Ф., Петров В.С. Инвестиционное дело. М.: Маркет ДС, 2010, 512 с.
4. Благодатин А.А., Лозовский Л.Ш., Райзберг Б.А. Биржа и ценные бумаги. М.: Экономика, 2011, 328 с.
5. Бланк И.А. Управление финансовыми ресурсами. М.: Омега Л, 2013, 768 с.
6. Боди З., Маркус А.Д., Ке́´ йн А. Инвестиции. М.: Олимп-Бизнес, 2013, 994 с.

7. Бочаров В.В. Инвестиции. М.: Юрайт, 2016, 464 с.
8. Евсеко О.С. Инвестиции. М.: Проспект, 2015, 256 с.
9. Ковалев В.В., Иванова В.В., Лялин В.А. Инвестиции. Учебник. М.: Проспект, 2016, 588 с.
10. Макконелл К.Р., Стэнли Л.Б. Экономикс: принципы, проблемы и политика. М.: Инфра-М, 2012, 216 с.
11. Маренков Н.Л. Экономическая теория цены и ценообразования в рыночных отношениях в России. М.: Едиториал УРСС, 2009, 940 с.
12. Огородников В.И. Инвестиционная политика: Учебное пособие. Новосибирск: СИУ РАНХ и ГС, 2014, 226 с.
13. Подшиваленко Г.П., Киселева Н.В. Инвестиционная деятельность. М.: КноРус, 2006, 432 с.
14. Подшиваленко Г.П., Лахметкина Н.И., Макарова М.В. Инвестиции. М.: КноРус, 2007, 200 с.
15. Розенберг Дж.М. Инвестиции: Терминологический словарь. М.: ИнфраМ, 2007, 400 с.
16. Сегв И.В., Веретенникова И.И., Шеховцов В.В. Инвестиции. Учебник и практикум. М.: Издательство Юрайт, 2014, 314 с.
17. Хасанов И.Ф. Формирование механизма реализации региональной инвестиционной политики. – М.: Палеотип, 2008, 148 с.
18. Шарп У.Ф., Александер Г.Дж., Бэйли Дж.В. Инвестиции. М.: Инфра-М, 2016, 1028 с.
19. www.economy.gov.az
20. www.maliye.gov.az

***Резюме***

***Рамиз Гюльмамедов***

***Концептуальный подход к инвестиционной политике Азербайджана***

В статье рассматривается роль и значение инвестиционной политики в Азербайджане. Основным содержанием современного этапа экономических преобразований является реструктуризация национальной экономики и восстановление экономического роста. Для достижения этой цели необходимым условием должно стать активизация инвестиционной деятельности, обеспечение технического, технологического, организационного и экономического обновления производства. Основная цель статьи – определить основные направления инвестиционной политики Азербайджана на этапе современного развития экономики страны. На современном этапе формирования социально ориентированной рыночной экономики разработка инвестиционной политики государства требует учета ее воспроизводственного, отраслевого и территориального аспектов. Общий недостаток финансовых ресурсов как у предприятий, так и у государства затрудняет реализацию капиталоемких проектов нового строительства и расширения производства. Преимущества рыночной экономики, такие как снижение затрат, сокращение сроков строительства и сроков освоения, предопределяют увеличение удельного веса воспроизводственной структуры капитальных вложений. В условиях неблагоприятной инвестиционной среды традиционные подходы к выбору приоритетов отраслевой инвестиционной политики также подвергаются определенной трансформации. При относительно низкой инфляции и устойчивой мотивации к накоплению производства это, главным образом, экспортный потенциал, перспективы спроса на промышленную продукцию на внутреннем рынке, степень перевода страны на более высокую индустриальную стадию, минимизация импортозависимости и общее снижение темпов роста экономики. ресурсоемкость производства, минимизация дефицита торгового баланса страны, в том числе благоприятные сопутствующие эффекты. Инвестиционная политика охватывает как финансирование государственных инвестиций, так и создание благоприятной инвестиционной среды для частных инвесторов и предприятий, осуществляющих капитальное строительство за счет собственных средств. Метод анализа систем и факторов, метод сравнения и аналогов, метод. Обобщения были использованы в исследовательской работе. Теоретической основой исследования являются положения классической и современной экономической науки, теории, охватывающие институциональный анализ инвестиционной привлекательности страны, а также теории инвестиционных

процессов. Каждый из результатов и рекомендаций, полученных в исследовании, может быть использован при принятии решения о капитальных вложениях в экономику Азербайджана, при оценке инвестиционной среды страны.

**Ключевые слова:** *инвестиционная политика, привлечение инвестиций, внутренние инвестиции, иностранные инвестиции, инвестиционная среда*

***Summary***

***Ramiz Gulmammadov***

***Conceptual Approach to the Investment Polıcy of Azerbaijan***

The article examines the role and importance of investment policy in Azerbaijan. The main content of the current stage of economic transformation is the restructuring of the national economy and the restoration of economic growth. To achieve this goal, a necessary condition should be the revitalization of investment activity, the provision of technical, technological, organizational and economic renewal of production. The main goal of the article is to determine the main directions of Azerbaijan's investment policy at the stage of modern development of the country's economy. At the modern stage of the formation of a socially oriented market economy, the development of the state's investment policy requires consideration of its reproductive, field and territorial aspects. The general lack of financial resources of both enterprises and the state makes it difficult to implement capital-intensive projects for new construction and production expansion. The advantages of the market economy, such as reduced costs and shorter construction time and a shorter development period, predetermine the increase in the specific weight of the reproductive structure of capital investments. In an unfavorable investment environment, traditional approaches to the selection of sectoral investment policy priorities are also subject to certain transformation. With relatively low inflation and a stable motivation to accumulate production, these are mainly export potential, demand prospects for industrial products in the domestic market, the degree of upgrading the country to a higher industrial stage, minimization of import dependence and a general reduction in the resource intensity of production, minimization of deficits in the country's trade balance, beneficial related effects included. The investment policy covers both the financing of state investments and the creation of a favorable investment environment for private investors and enterprises carrying out capital construction at their own expense. The method of analyzing systems and factors, the method of comparison and analogues, and the method of generalization were used in the research work. The theoretical bases of the research are the provisions of classical and modern economic science, the theories covering the institutional analysis of the country's investment attractiveness, as well as the theories of investment processes. Each of the results and recommendations obtained in the study can be used when making a decision on capital investment in the economy of Azerbaijan, when evaluating the country's investment environment.

**Key words:** *investment policy, investment attraction, domestic investment, foreign investment, investment environment*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.